# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

## Qərar № 30

20 may 2016-cı

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2013-cü il 18 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Səhiyyə müəssisələrində həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

Səhiyyə müəssisələrinə işə qəbul qaydalarının təkmilləşdirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin 17-1.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası **qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2013-cü il 18 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Səhiyyə müəssisələrində həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci "tibb" sözü "səhiyyə" sözü ilə əvəz edilsin;

1.2. 1.3-cü bənd üzrə:

1.2.1. 1.3-cü bəndin birinci abzasının birinci cümləsində "Tibb" sözü "Səhiyyə" sözü ilə əvəz edilsin;

1.2.2. ikinci abzasında "rəhbərlərinə" sözündən sonra ", dövlət proqramı ilə xaricdə təhsil almış şəxslərə" sözləri əlavə edilsin;

1.3. 2-ci hissənin adında "Müsabiqə Komissiyası" sözləri "Müsabiqənin təşkili" sözləri ilə əvəz edilsin;

1.4. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Səhiyyə müəssisələrində vakant elan edilmiş həkim ixtisasları üzrə vəzifələrə həkimlərin mərkəzləşdirilmiş qaydada işə qəbulu tərkibi Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən müəyyən edilmiş komissiya tərəfindən həyata keçirilir.";

1.5. 2.2-ci bənd ləğv edilsin;

1.6. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. Komissiya müsabiqənin keçirilməsi üçün vakant elan edilmiş vəzifələrə uyğun mütəxəssisləri cəlb edir. Müsabiqənin keçirilməsinə cəlb oluna bilən mütəxəssislərin siyahısı Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən təsdiq edilir.";

1.7. 2.4-cü – 2.14-cü bəndlər ləğv edilsin;

1.8. 3.1-ci bənd üzrə:

1.8.1. birinci cümlədə "Tibb işçilərinin vahid registri" sözləri "Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestri" sözləri ilə əvəz edilsin, "məlumat" sözündən sonra "onun başlamasına azı bir ay qalmış" sözləri əlavə edilsin;

1.8.2. ikinci cümlə çıxarılsın;

1.9. 3.2-ci bənddə "Nazirliyinə şəxsən və ya" sözləri "Nazirliyinin" sözü ilə, "müvafiq sənədləri" sözləri "bu Qaydaların 3.3-cü bəndində göstərilmiş sənədlərin" sözləri ilə əvəz edilsin;

1.10. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin və 3.3.1-ci – 3.3.8-ci yarımbəndlər ləğv edilsin:

“3.3. Qanunla nəzərdə tutulmuş hallarda sertifikasiyadan keçirilməyən şəxslər ali təhsil haqqında sənədin və olduğu halda, ixtisaslaşma haqqında sənədin surətlərini ərizələrinə əlavə edirlər (ərizə forması əlavə olunur).”;

1.11. 3.4-cü bənd ləğv edilsin;

1.12. 3.5-ci bəndin əvvəlinə aşağıdakı məzmunda cümlə əlavə edilsin:

“Namizəd işə qəbul olunmaq üçün ixtisasına və ya baza təhsilinə uyğun 5 (beş) vakant yer seçə bilər.”;

1.13. 3.6-cı və 3.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“3.6. Müraciət edildiyi gündən 3 (üç) gün ərzində sənədlərin tamlığı, onların namizədin ərizəsində əks olunan məlumatlara uyğunluğu Səhiyyə Nazirliyinin Kadr, elm və təhsil şöbəsi tərəfindən yoxlanılır. Bu Qaydalara uyğun olmayan sənədlər qəbul edilmir.

3.7. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra bu qaydaların 3.8-ci bəndində göstərilən müddətdə sənədlər yenidən təqdim oluna bilər. Namizədin təqdim etdiyi elektron poçt ünvanına sənədlərinin qəbulu barədə məlumat göndərilir.”;

1.14. 3.8-ci bənd üzrə:

1.14.1. birinci cümlədə “yalnız müsabiqə haqqında elanda göstərilən müddət” sözləri “10 (on) iş günü” sözləri ilə əvəz edilsin;

1.14.2. ikinci cümlədən “(göstərilən müddət üçün poçtla göndərilən sənədlər istisna olmaqla)” sözləri çıxarılsın;

1.15. 3.9-cu bənd ləğv edilsin;

1.16. 3.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“3.10. Təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun olduqda namizəd barədə məlumat ümumi siyahıya daxil edilir.”;

1.17. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

**“4. Müsabiqə**

4.1. Müsabiqənin (imtahanın) keçirilməsinə 10 (on) gün qalmış namizəd Səhiyyə Nazirliyinin internet səhifəsində bu barədə məlumat yerləşdirmək yolu ilə və onun təqdim etdiyi elektron poçt vasitəsilə ünvanlarına yazmaqla Səhiyyə Nazirliyinin Kadr, elm və təhsil şöbəsi tərəfindən məlumatlandırılır.

4.2. Namizədə şəxsi eyniləşdirmə kodu verilir. Şəxsi eyniləşdirmə kodu rəqəmlə ifadə olunur və imtahan zamanı namizədin anonimliyinin qorunmasına xidmət edir.

4.3. İmtahana buraxılış vərəqəsi və yaddaş kitabçası namizədin elektron poçt ünvanına göndərilir. İmtahana buraxılış vərəqəsində namizədin soyadı, adı, atasının adı qeyd olunur və imtahan keçirilən yerin ünvanı, tarix, vaxt, auditoriyanın nömrəsi göstərilir.

4.4. İmtahana gələn namizəd imtahana buraxılış vərəqəsini və şəxsiyyət vəsiqəsini özü ilə gətirməlidirlər. Göstərilən sənədlərin biri olmadıqda, həmin şəxs imtahana buraxılmır.

4.5. İmtahanın keçirilməsini təmin etmək məqsədi ilə Komissiya imtahan rəhbərini və imtahan nəzarətçilərini təyin edir. İmtahan nəzarətçilərinin sayı hər auditoriya üzrə iki nəfərdən az olmamalıdır.

4.6. İmtahanda yolverilməyən hərəkətlər, habelə imtahana gətirilməsi qadağan edilən əşyaların siyahısı yaddaş kitabçasına daxil edilir.

4.7. Namizəd imtahanın keçirilmə qaydalarını pozduqda, imtahanın rəhbəri və nəzarətçi tərəfindən bu barədə akt tərtib edilir və həmin şəxs imtahandan kənarlaşdırılır. Müvafiq pozuntular imtahan başa çatdıqdan sonra aşkar edilərsə, həmin şəxsin imtahan nəticələri Komissiya tərəfindən ləğv edilir.

4.8. İmtahan sualları test və klinik tapşırıq hissələrinə bölünür və konfidensiallıq gözlənilməklə, Komissiya tərəfindən üç mürəkkəblik dərəcəsi üzrə tərtib edilir. Hazırlanmış suallar toplusunda sualların sayı imtahanda istifadə ediləcək sualların sayından azı 10 dəfə çox olmalıdır. Suallar toplusu hər il 10 (on) faizdən aşağı olmayaraq yenilənir;

4.9. Komissiya imtahan suallarının test hissəsinə dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallıq gözlənilməsi şərtilə xüsusi ayrılmış yerdə bir nüsxədə Səhiyyə Nazirliyinin Kadr, elm və təhsil şöbəsi tərəfindən saxlanılması təmin edirlir.

4.10. İmtahan suallarının test hissəsi informasiya texnologiyaları və xüsusi optik cihazlar vasitəsilə oxunan və 40 (qırx) sualdan ibarət olan sual kitabçasında qeyd olunur. Sual kitabçasına daxil edilən sualların mürəkkəblik nisbəti Komissiya tərəfindən müəyyən edilir.

4.11. İmtahan suallarının klinik tapşırıq hissəsi namizədin ixtisasına aid, habelə onun praktiki bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən 3 (üç) sualdan ibarət olur və sual kitabçasında qeyd olunur. Klinik tapşırıq hissəsi üzrə sualların məzmunu test imtahanında verilən sualların məzmunundan fərqlənməlidir.

4.12. İmtahanın sualları bilavasitə imtahan başlamazdan əvvəl Komissiya tərəfindən aşkar surətdə ümumi suallar toplusundan seçilir və 2 (iki) müxtəlif variantda hazırlanır. Bunun üçün suallar toplusu olan zərf müşahidəçilərin iştirakı ilə açılır və kompüterə daxil edilir. Kompüter verilmiş proqrama uyğun olaraq ümumi sual bankından 2 (iki) müxtəlif variantda 40 (qırx) test sualı və 3 (üç) klinik tapşırıq sualı seçir. Seçilmiş suallar yerindəcə, mətbəə üsulu ilə namizədlərin sayına uyğun olaraq çoxaldılır və onlara paylanılması üçün Komissiya tərəfindən təyin edilmiş imtahan rəhbərinə verilir.

4.13. Suallar seçildikdən sonra imtahan rəhbəri nəzarətçi və müşahidəçi ilə birlikdə cavab kartları zərfinin möhürünü açır, şəxsi eyniləşdirmə kodu ilə şifrələnmiş cavab kartları imtahan suallarının test və klinik tapşırıq hissələrinə uyğun olaraq ayrılır. Cavab kartları namizədlərə paylanılır və onların doldurulması qaydaları izah edilir. Daha sonra sual kitabçıları paylanılır.

4.14. İmtahan üç saat müddətində keçirilir. İmtahan zamanı fasilə verilmir.

4.15. İmtahanın başlanma vaxtı suallar paylanılıb qurtardığı andan hesablanır. İmtahan bir neçə auditoriyada keçirildikdə, hər auditoriyada imtahanın başlanma vaxtı həmin auditoriyada sual kitabçaları paylanılıb qurtardığı andan hesablanır.

4.16. İmtahan suallarının test hissəsi üzrə cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə hesablanmır. İmtahan suallarının klinik tapşırıq hissəsi üzrə cavab kartında 3 (üç) klinik tapşırıq sualı ardıcıl olaraq tünd göy rəngdə yazan diyircəkli qələmlə aydın xətlə cavablandırılmalıdır. Cavab kartı onu doldurmuş şəxs tərəfindən imzalanır. Cavab kartında hər hansı bir qeydin aparılması qadağandır. Suallara verilən cavablardan başqa hər hansı bir qeyd aparılmış cavab kartı etibarsız hesab olunur.

4.17. İmtahanın başa çatması barədə protokol tərtib edilir. Protokol nəzarətçilər və iki namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir, imtahan rəhbərinə verilir. İmtahan rəhbəri möhürlənmiş zərfi Komissiyaya təqdim edir.

4.18. Komissiya imtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanılmasını informasiya texnologiyaları tətbiq etməklə, klinik tapşırıq hissəsi üzrə cavabların qiymətləndirilməsini isə mütəxəssislər cəlb edilməklə təmin edir. Cavabların yoxlanılmasının bütün mərhələlərində imtahanda iştirak edən şəxsə dair məlumatların konfidensiallığı təmin edilməlidir.

4.19. Test hissəsi üzrə hər bir suala düzgün cavab bir balla qiymətləndirilir (cəmi 40 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması sıfır bala bərabər tutulur.

4.20. Qiymətləndirmənin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə informasiya texnologiyaları vasitəsilə həyata keçirilir.

4.21. Klinik tapşırıq hissəsi üzrə hər bir suala verilən cavab mütəxəssis tərəfindən 2, 3, 4 və ya 5 ballardan biri ilə qiymətləndirilir və sonra bütün suallar üzrə verilən ballar toplanılır (cəmi 15 mümkün bal).

4.22. Cavab kartlarının yoxlanılması başa çatdıqdan sonra imtahanının nəticələri cavab kartları ilə birlikdə Komissiyaya təqdim edilir.

4.23. Komissiya imtahanın nəticələrini imtahan keçirilən tarixdən üç gün müddətində Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirir.

4.24. İmtahan suallarının test hissəsi üzrə 25 (iyirmi beş) və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 9 (doqquz) və ya daha çox bal toplamış şəxslər imtahandan keçmiş hesab olunurlar. İmtahan suallarının test və klinik tapşırıq hissələri üzrə toplanılan ballar ümumiləşdirilərək yekun bal çıxarılır.

4.25. İmtahanda iştirak etmiş namizədə onun tələbi ilə imtahanın nəticəsi üzrə arayış verilir.

4.26. İmtahanın nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 5 iş günü müddətində mübahisəyə aydınlıq gətirilməsi üçün Komissiyaya müraciət edə bilər. Məsələ ərizəçinin iştirakı ilə araşdırılır və ona izah verilir.

4.27. Cavab kartı düzgün qiymətləndirildikdə, ərizəçiyə Komissiya tərəfindən əsaslandırılmış cavab verilir. Balların düzgün hesablanmadığı aşkar edildikdə, Komissiya tərəfindən yenidən hesablanma aparılır.

4.28. Komissiya imtahan ilə bağlı sənədlərin (sual kitabçaları və cavab kartları) 1 (bir) il müddətində saxlanılmasını təmin edir.";

1.18. 5-ci hissə ləğv edilsin;

1.19. 6-cı hissənin adında "Müsabiqənin yekunlaşdırılması və namizədlərin" sözləri "Namizədlərin" sözü ilə əvəz edilsin və 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.1. Namizədin topladığı bal onun seçdiyi 5 (beş) vakant yerə uyğun olaraq ardıcıllıqla yoxlanılır. Vakant elan edilmiş vəzifəyə təyin olunmaq üçün həmin vəzifəyə namizədlər arasında daha yüksək bal toplamış şəxs seçilir.";

1.20. 6.2.2-ci yarımbənddə "sayı" sözü "və iştirak etdiyi konfrans, simpozium və digər tədbirlərin mövcudluğu" sözləri ilə əvəz edilsin;

1.21. 6.2.4-cü yarımbənd ləğv edilsin;

1.22. 6.3-cü bənddə "üçün" sözündən sonra "etibarlılıq müddəti 10 iş günü olan" sözləri, "barədə" sözündən sonra "göndəriş namizədə verildiyi gün" sözləri əlavə edilsin;

1.23. 6.4-cü bəndin birinci cümləsində "3" rəqəmi "10" rəqəmi ilə əvəz edilsin və bu bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əmək qabiliyyətinin müvəqqəti itirilməsi halları istisna olmaqla (bu halda əmək qabiliyyətinin müvəqqəti itirilməsi müddətinə qədər göndəriş müddəti uzadılmış hesab olunur) bu müddəti pozmuş namizədin göndərişi etibarsız hesab olunur.";

1.24. 7.1-ci bəndin birinci, ikinci cümlələrində və 7.3-cü bənddə ismin müvafiq hallarında verilmiş "imtahan və müsahibə" sözləri ismin müvafiq hallarında "müsabiqə" sözü ilə əvəz edilsin.

1.25. Qaydalara əlavə aşağıdakı redaksiyada verilsin:

*"Səhiyyə müəssisələrinə həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu Qaydaları"na*
*ƏLAVƏ*

***Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə***

## Ə R İ Z Ə

1 . **Şəxsi məlumatlar**

1 . 1 . Soyadı ______________________________

1 . 2 . Adı ______________________________

1 . 3 . Atasının adı ______________________________

1 . 4 . Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestri kodu (olduğu halda) ____________________

1 . 5 . Sertifikasiya şəhadətnaməsi: seriya _________ №____________________

1 . 6 . Daimi yaşayış ünvanı ______________________________

1 . 7 . E-poçt ünvanı ______________________________

1 . 8 . Əlaqə telefonu ______________________________

2 . **Müraciət etdiyim tibb müəssisəsi və vakant vəzifə** (elana əsasən)

2 . 1 . ______________________________

2 . 2 . ______________________
2 . 3 . ______________________
2 . 4 . ______________________
2 . 5 . ______________________

**3. Təhsil haqqında** (Sertifikasiyadan keçmədiyi halda)

3.1. Təhsil aldığı ölkə ______________________
3.2. Təhsil müəssisənin adı ______________________
3.3. Fakültə ______________________
3.4. Diplomun nömrəsi ______________________
3.5. Diplomun verilmə tarixi ______________________

**4. İnternatura** (olduğu halda)

4.1. Müəssisənin adı ______________________
4.2. İxtisası ______________________
4.3. Vəsiqənin nömrəsi ______________________
4.4. Verilmə tarixi ______________________

**5. Rezidentura** (olduğu halda)

5.1. Müəssisənin adı ______________________
5.2. İxtisası ______________________
5.3. Vəsiqənin nömrəsi ______________________
5.4. Verilmə tarixi ______________________

**6. Ordinatura** (olduğu halda)

6.1. Təhsil aldığı ölkə ______________________
6.2. Müəssisənin adı ______________________
6.3. İxtisası ______________________
6.4. Vəsiqənin nömrəsi ______________________
6.5. Verilmə tarixi ______________________

**7. İxtisası üzrə əmək stajı** ______________________

**8. Elmi dərəcə və ad**

8.1. Elmi dərəcə ______________________
8.2. Vəsiqənin nömrəsi ______________________
8.3. Verilmə tarixi ______________________
8.4. Elmi ad ______________________

**9. İxtisasartırma kursları**

9.1. Ölkə ______________________
9.2. Müəssisə ______________________
9.3. Tarix ______________________

9.4. Mövzu ____________________________________________________________

**10. Əlavə məlumatlar**

10.1. Hal-hazırda işləyirsinizmi? Bəli ☐ Xeyr ☐

10.2. İşə qəbulla bağlı ilk dəfə müraciət edirsiniz? Bəli ☐ Xeyr ☐

“___” “_____” 20____il tarixdə elan olunmuş müsabiqədə iştirak etməyim üçün sənədlərimin qəbul edilməsini xahiş edirəm.

**İmza** ____________________ **Tarix** “______”________________ 20_____ il”

2. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Qərarın icrasına nəzarət nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

Kollegiyanın məsul katibi Nərgiz Şahbazova